# Bakı Forumu obyektivliyi və qərəzsizliyi ilə bənzərsiz beynəlxalq məclisdir



***Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında keçirilən IX Qlobal Bakı Forumu müzakirə olunan mövzuların əhəmiyyəti və çoxşaxəliliyi baxımından dünyanın müxtəlif ölkələrində keçirilən digər beynəlxalq konfrans və forumlardan tamamilə fərqlənir. Qlobal Bakı Forumunun özəlliyi bu gün bəşəriyyəti ciddi çağırışlar qarşısında qoyan problemlərə kompleks şəkildə yanaşılmasında və onları yaradan səbəblərin bu və ya digər geosiyasi qütbün maraqlarını ifadə etmədən gündəmə gətirilməsindədir.***

Xatırladaq ki, 1962-ci ildən etibarən müxtəlif adlar altına keçirilən Münhen Təhlükəsizlik Konfransında, əsasən, xarici siyasət və təhlükəsizlik məsələləri müzakirə olunur. Həmin beynəlxalq məclisin 1993-cü ilədək "Hərbi məsələlər üzrə konfrans" adlanması da Münhen Təhlükəsizlik Konfransinin prioritetlərinin nədən ibarət olduğundan xəbər verir. 1971-ci ildə yaradılan Davos Ümumdünya İqtisadi Forumunun fəaliyyəti də konkret istiqamətləri əhatə edir. Davosda, bir qayda olaraq, iqtisadi və səhiyyə və ekologiya da daxil olmaqla qismən sosial sferaları əhatə edən məsələlər müzakirə olunur. 2004-cü ildə yaradılan Valday Diskussiya Klubunun təşkil etdiyi konfransların da mövzusu, adətən, qlobal iqtisadi-siyasi problemlərlə bağlı olur və müəyyən qədər Münhen Təhlükəsizlik Konfransının formatını xatırladır.

Bu vaxtadək dünyada 50-dən artıq müxtəlif sahələri əfatə edən belə populyar və önəmli beynəlxalq müzakirə məclisləri təşkil olunur. Onların arasında davamlı şəkildə keçirilənləri də, konkret problemlərdən doğan çağırışlarla bağlı təşkil olunanları da var. Qlobal Bakı Forumunu digər konfrans və forumlardan fərqləndirən cəhət, qeyd etdiyimiz kimi, dünyanı ciddi çağırışlar qarşısında qoyan problemlərə kompleks şəkildə yanaşılması və bu çağırışların, hansı sahəni əhatə etməsindən asılı olmayaraq, bir-biri ilə zəncirvari şəkildə bağlı olduğuna diqqət yetirilərək ən incə detallarına qədər təhlil edilməsi, reallığa uyğun çıxış yollarının göstərilməsidir.

Qlobal Bakı Forumunu fərqləndirən ən önəmli cəhətlərdən biri burada aparılan müzakirələrin hazır geosiyasi və geoiqtisadi baxışlardan uzaq olması, çağdaş çağırışları cavablandıran yeni yanaşmalara üstünlük verilməsidir. Qeyd edim ki, Prezident İlham Əliyev "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı bu məqama xüsusi diqqət çəkdi və bildirdi ki, forumda yeni yanaşmaların müzakirəsi indi heç vaxt olmadığı kimi zəruridir. Bu baxımdan, forumun işində bu dəfə də bəşəriyyəti ciddi çağırışlar qarşısında qoyan problemlərin həllinə münasibətdə yeni yanaşmalar üstünlük təşkil etdi. Qlobal Bakı Forumu həm də bu istiqamətdə müsbət nümunə sərgilədi.

Hazırda Ukraynada baş verənlərin fonunda bəşəriyyətin üzləşdiyi problemlər, eləcə də ərzaq təhlükəsizliyi ilə bağlı çağırışların getdikcə daha təhlükəli həddə çata biləcəyi ehtimalı siyasi, iqtisadi, sosial, ekoloji və digər sahələrdə yaranan təhlükələrin bir-biri ilə bağlı olduğunu təsdiqləyir. Müharibələr iqtisadiyyata, ekologiyaya, ərzaq və enerji təhlükəsizliyinə təhdid yaradır və əksinə, iqtisadi, sosial, humanitar, ekoloji problemlər yeni münaqişə və müharibələr üçün əlverişli zəmin formalaşdırır. Məhz bu baxımdan rəsmi Bakının dünyada baş verən proseslərə baxış bucağını ifadə edən Qlobal Bakı Forumu Yer kürəsinə və bütün bəşəriyyətə vahid bir orqanizm kimi yanaşması, təbiət və insanın ilahi harmoniyada olduğunu nəzərə alması ilə fərqlənir, buna görə də unikaldır, ən əsası isə obyektiv və qərəzsizdir.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin forumdakı səsləndirdiyi bəyanatlar həqiqəti əks etdirməsi və dünyada sülhün möhkəmlənməsini hədəfə alması ilə böyük maraqla qarşılandı. Dövlət başçısı Azərbaycan–Ermənistan münasibətlərinin bu günü və gələcəyi, Zəngəzur dəhlizi və onun açılmasının önəmi ilə bağlı konkret fikirlər səsləndirdi, iştirakçılarda bölgədə yaranmış reallıqlar barədə aydın təsəvvür yaratdı. O beynəlxalq auditoriyaya yönəlik açıqlamasında bildirdi ki, Qafqaz regionda sülhün, əməkdaşlığın bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycanın sülh səylərini dəstəkləməli, vəziyyəti yenidən gərginləşdirə biləcək revanşist niyyətlərdən imtina etməlidir. Azərbaycan lideri Zəngəzur dəhlizinin açılmasının önəmini bu forumda da vurğuladı, bununla bağlı dövlətimizin prinsipial mövqeyini açıqlayaraq bildirdi ki, Zəngəzur dəhlizi açılmasa, sülhdən danışmağın mənası olmaz.

Forumdakı çıxışında Prezident İlham Əliyev dünyadakı mövcud münaqişələrin dinc yolla həlli, ərzaq təhlükəsizliyinin təmin edilməsi və ədalətli dünya nizamının vacibliyini də xüsusi qeyd etdi. O, Azərbaycanın sülh və tərəqqiyə necə böyük önəm verdiyini bir daha dünyanın nəzərinə çatdırdı. Ölkə rəhbərinin forumda səsləndirdiyi fikirlər, təkcə ölkəmiz üçün deyil, region və bürün dünyanın gələcək inkişafı üçün də ən önəmli məqamları gündəmə gətirdi. Forum müstəqil Azərbaycan dövlətinin humanist hədəflərini sərgiləməsi ilə ölkəmizə olan beynəlxalq marağa yeni dividentlər qazandırdı.

***Elçin MİRZƏBƏYLİ,***
***"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, siyasi ekspert***

Xalq qəzeti .- 2022.- 19 iyun.- S.3.